# Milli Mətbuat Günü Mingəçevirdə qeyd olundu



Mingəçevirdə kütləvi informasiya vasitələrinin nümayəndələri (KİV) ilə görüş keçirilib.

Esmira Hidayətova

22 iyul-Milli Mətbuat Günü münasibətilə Mingəçevir Heydər Əliyev Mərkəzində kütləvi informasiya vasitələrinin nümayəndələri (KİV) ilə görüş keçirilib. Jurnalistlər, əvvəlcə, ulu öndərin heykəlini ziyarət edib, büstü önünə gül dəstələri düzərək, öz ehtiramlarını bildiriblər. Daha sonra yerli qəzet və jurnal təmsilçiləri ilə ictimayyətin də iştirak etdiyi "dəyirmi masa"da İcra Hakimiyyəti başçısının birinci müavini İlham İsmayılov çıxış edərək, bu əlamətdar gün münasibətilə jurnalistləri təbrik edib. Milli mətbuatımızın yaranma tarixinə nəzər salan müavin bildirib ki, əsas məqsədi Azərbaycan cəmiyyətini maarifləndirmək, xalqın milli özünüdərk prosesinə təkan vermək olan "Əkinçi" qəzeti öz fəaliyyəti dövründə milli şüurun formalaşmasında mühüm rol oynayıb. Natiq qeyd edib ki, keşməkeşli inkişaf yolu keçən Azərbaycan mətbuatı ümummilli liderimiz Heydər Əliyevin həmişə qayğısını hiss edib: "Çünki ulu öndər hətta sovet dövrünün ciddi senzura şəraitində belə fikir və söz azadlığının himayədarı olub, mətbuatın ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına təkan verib. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan mətbuatı özünün yeni mühüm inkişaf dövrünü yaşayır. Azərbaycanda mətbuat üzərində hər hansı bir dövlət nəzarəti mexanizmi yoxdur. Mətbuat tam sərbəst, müstəqil şəraitdə öz fəaliyyətini qurub və bu prinsiplərlə də inkişaf edir". Görüşdə qəzet və jurnal nümayəndələri çıxış edərək, fikir və mülahizələrini bildiriblər. Sonda bir qrup jurnalistə hədiyyələr təqdim olunub.